## Həyatı və fəaliyyəti

Azərbaycan xalqının qədim milli-mədəni irsini yaşadan, dünyaya tanıdan şəxsiyyətlərdən biri də **Əcəmi Əbubəkr oğlu Naxçıvanidir.** Əcəmi Əbubəkr oğlu Naxçıvani XII əsrdə Naxçıvanda doğulub. Onun doğum tarixi dəqiq bilinməsə də, 1120–1130-cu illər arasında olduğu ehtimal edilir. Mənşəcə Azərbaycan türkü olan Əcəmi Naxçıvani yaradıcı ömrünü Azərbaycan Atabəylər dövlətinin ərazisində yaşamışdır. Bu dövlətin mərkəz şəhərlərindən biri də Naxçıvan idi. Əcəmi orta əsr Azərbaycan memarlığına yeni istiqamət vermiş, özünün sənət dühası ilə Səlcuqilər dövrü memarlığının bir qədər ağır və sərt üslubuna böyük incəlik və dinamiklik gətirmiş, Yaxın Şərq memarlığına güclü təsir göstərmişdir. Şərqin böyük dühaları ona **"Şeyxül-mühəndis"** (mühəndislərin başçısı) fəxri adı vermişdilər.

Məxəzlərin verdiyi məlumatlarda deyildiyi kimi, Azərbaycanın intibah dövrü adlandırılan XI və XII əsrlərdə şəhərlər böyüyür, saraylar, məscidlər, müdafiə və xatirə tikililəri qurulurdü. Sənətkarlıq, elm, incəsənət və poeziya inkişaf edirdi. Bu dövrdə Qətran Təbrizi, Bəhmənyar əl-Azərbaycani, Xətib Təbrizi, Nizami Gəncəvi, Xaqani Şirvani, Əbülüla Gəncəvi, Məhsəti Gəncəvi və digərləri kimi bir sıra dahi şəxsiyyətlər yaşayıb-yaratmışlar. Yalnız Şərqdə deyil, həm də Qərb dünyasında yaxşı tanınan bu kəhkəşan ulduzları arasında ən çox işıq saçanlarından biri də Əcəmi Naxçıvani olmuşdur. O, bir çox dəyərli memarlıq əsərlərinin müəllifi kimi dünya şöhrəti qazanmış, Naxçıvan memarlıq məktəbinin banisi kimi tanınmışdır. Tarixdən məlumdur ki, **Möminə Xatun türbəsi** Atabəy Şəmsəddin Eldənizin həyat yoldaşı, Məhəmməd Cahan Pəhləvanın anası Möminə Xatunun şərəfinə tikilib. Türbə daha çox iri ölçüləri, monumental biçimləri, dinamik silueti ilə diqqəti cəlb edir, baxanları heyran qoyur. İllərdən, əsrlərdən bəridir dillərdən düşməyən rəvayətə görə, memardan bu abidəni nə vaxt tikib başa çatdıracağını soruşublar. Sənətkar "uzun müddət" sözünü dilə gətirsə də, bu müddətin on il olmasına qərar verilmişdir. Yəqin ki, elə buna görə də abidə "əsrin ondabiri" kimi də yaddaşlara həkk olunub. Təbiidir ki, türbənin hansı müddətə tikildiyi tarix üçün önəmli deyil. Önəmli olan onun memarlıq xüsusiyyətləri və gözəlliyidir. Bacarıqlı memar Əcəmi Naxçıvani bu işə xeyli vaxt sərf etsə də, özündən sonra bütün zamanların insanlarını heyran edən nadir bir sənət incisi qoyub getmişdir. Əcəmi Naxçıvaninin memarlıq irsi içərisində ən tanınmış və ölümsüz əsərlərdən biri olan Möminə Xatun türbəsi Azərbaycan memarlığında monumental türbə tiplərinin ilk və ən mükəmməl nümunələrindən hesab olunur. Türbə 10 guşəli silindrik quruluşu, ətrafının kərpiclə işlənmiş mürəkkəb ornamentləri, kufi xətti ilə yazılmış Quran ayələri və memarın öz imzası ilə dünya memarlığında unikallığı ilə seçilir. Əcəminin yaratdığı ilk məlum abidə **Yusif Küseyir oğlu türbəsidir.** Naxçıvan şəhərinin mərkəzində yerləşən və el

arasında "Atababa günbəzi" adı ilə tanınan bu türbə 1162-ci ildə tikilmişdir. Səkkizbucaqlı gövdədən, qülləvarı günbəzdən, bucaqlarda qoyulmuş dayaqlardan ibarət həmin abidə kərpicdən hörülmüş, divarları quraşdırma həndəsi ornamentlərlə örtülmüşdür. Burada bədiiliklə memarlığın tektonikası ahəngdar şəkildə birləşmişdir. Abidənin giriş qapısından soldakı kitabədə memarın adı yazılmışdır: **"Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməli".**

Əcəminin yaratdığı tikililərdən biri də qoşa minarədən və bunları birləşdirən baştağdan-portaldan ibarətdir. Bu abidə, Mömünə xatun türbəsi də daxil olmaqla, böyük bir memarlıq kompleksinin giriş hissəsidir. Bu kompleksə daxil olan və XIX əsrə kimi dağınıq halda qalmış Naxçıvan Cümə məscidi, mənbələrdə adı çəkilən **"Darülmülk" - Eldənizlər sarayı** və **"Dövlətxana"- hökumət binası** da Əcəmi sənətinin nümunələridir. Tədqiqatçılar Əcəminin bu abidələrdən başqa, Atabəylər paytaxtında - Naxçıvanda daha bir çox binalar tikdiyini qeyd edirlər.

Əcəmi Naxçıvani sadəcə estetik zövqə malik memar deyildi. O, mühəndislik biliklərini ustalıqla tətbiq edən sənətkar idi. Onun əsərlərində həndəsi dəqiqlik, bədii simmetriya, konstruksiyaların daşıyıcılıq qabiliyyəti və funksional dizayn mükəmməl şəkildə vəhdət təşkil edir. Əcəmi türbə və məscidlərində kərpic və daşdan birgə istifadə edir, bəzək elementlərini memarlıq strukturunun ayrılmaz hissəsinə çevirirdi. Onun memarlığında kərpic yalnız tikinti materialı deyil, həm də dekorativ funksiyalı elementdir.

Əcəmi memarlığında çoxsəviyyəli tağ sistemləri, günbəzlərin daşıyıcı konstruksiyası, yüksək işıqlandırma imkanları, iç məkanın tənzimlənməsi və enerji balansı dövrünün qabaqcıl ideyalarına əsaslanırdı. Hər bir detal konkret funksiyanı daşıyırdı. Məsələn, günbəzlər yalnız estetik görüntü yaratmaq üçün deyil, həm də istilik və səs izolyasiyası üçün mükəmməl bir struktur rolunu oynayırdı.

Əcəmi yaradıcılığı Azərbaycan və Yaxın Şərq ölkələri memarlığına böyük təsir göstərmişdir - Marağadakı Göy günbəz (1196), Naxçıvan yaxınlığındakı Gülüstan türbəsi (XIII əsr), Qarabağlar türbəsi (XII-XIV əsrlər), Bərdə türbəsi (XVI əsr),türk memarı Sinanın (XVI əsr) İstanbulda tikdiyi türbələrdə Əcəmi ənənələri yaşayır. 1926-ci ildə Gəncədə Nizaminin məzarı üstündə abidə qoyularkən Əcəmi irsindən istifadə edilmiş, Nizami türbəsi Əcəmi dühası ruhunda tikilmişdir.

Bakıda ucaldılmış Nizami heykəlinin kürsü hissəsində, Şuşadakı Vaqif türbəsində, Naxçıvan şəhərindəki Hüseyn Cavid məqbərəsində Əcəminin memarlıq irsinin təsiri aydın hiss olunur. Məşhur sənətşünas Ernest Dits qeyd edirdi ki, Sinanın İstanbulda tikdiyi türbələr Naxçıvan türbələrinin təsiri altında yaranmışdır. E. Dits yazırdı ki, Sinan ordu mühəndisi kimi 1535-36 illərdə İran səfəri zamanı Naxçıvana gəlib, Əcəminin memarlıq məktəbi ilə tanış olmuşdur.

Əcəmi Naxçıvani tərəfindən yaradılmış memarlıq məktəbi təkcə Naxçıvanla məhdudlaşmayıb. Onun üslubu sonrakı dövrlərdə Səlcuq memarlığında, Anadolu

şəhərlərində və İsfahan, Təbriz, Səmərqənd kimi mədəniyyət mərkəzlərində də təsirini göstərib. Onun struktural yanaşması, kərpicdən istifadə prinsipi və bəzəkli elementlərin dizayna inteqrasiya olunması xüsusilə Memar Sinan dövrünün əsərlərində də hiss olunur. Bu da göstərir ki, Əcəmi təkcə lokal sənətkar olmayıb, dünya memarlıq tarixinə yön verən şəxsiyyətlərdən biri olub.

Bacarıqlı memarın şah əsəri olan Möminə Xatun türbəsinin divarlarına yazdığı bu sözlər onun necə də təfəkkürlü, zəkalı və uzaqgörən olduğunu bir daha təsdiq edir: ***"Biz gedəriyik. Dünya əbədi qalandır. Biz gedəcəyik, dünya qalacaq. Biz ölərik, bu bizdən xatirə qalar. İlahi, bəd nəzərdən uzaq elə".*** Gələcəyi güzgü kimi aydın görən Əcəmi tarixin reallığını olduğu kimi görür və qəbul edirdi. İstedadlı memarın uzaqgörənliyi nəticəsində onun ölməz sənət abidələri ilə yanaşı, bu dəyərli sözləri, fikirləri bu gün yaşayır, sabah da yaşayacaq.

Dövrünün tanınmış memarı olan Əcəmi Naxçıvaniyə aid edilən tikili və abidələrin sırasına Cümə məscidi də daxildir. Bu məscidin təsvirinə məşhur səyyahların qeydlərində də rast gəlmək mümkündür. XIX əsrin ortalarında səyyah V.Engelqart "Qafqaz" qəzetində məscid haqqında bunları yazırdı: ***"Bu - yonulmuş daşlardan tikilmiş və tağları olan nəhəng bir binadır. İçəridə hələ də gözəl relyefli oymaların izləri qalmaqdadır. Məscidin bir hissəsi artıq dağılıb, o biri hissəsi isə dağılmaq üzrədir. Məsciddən 50 sajen aralıda hündürlüyü 20 sajenə çatan qoşa minarəli darvaza yerləşir. Darvaza da həmin kompleksə daxildir. Əvvəllər məscidlə darvazanın arasındakı yerdə müxtəlif tikililər olub, ancaq indi bunlar yoxdur və adama elə gəlir ki, darvaza bir qədər yaxındakı tənha qalaya aiddir".***

Böyük sənətkar Əcəmi Naxçıvaninin ölümündən sonrakı dövrlərdə onun yaratdığı məktəbin təsiri ilə yenə də möhtəşəm memarlıq abidələri tikilmişdir. O da xüsusilə qeyd olunmalıdır ki, Naxçıvan memarlıq məktəbinin təsir coğrafiyası xeyli geniş olmuşdur. Azərbaycan hüdudlarını aşıb keçən bu coğrafiya Yaxın və Orta Şərq ölkələrinə qədər gedib çıxmışdır. Müxtəlif zamanlarda bu ölkələrdə tikilmiş abidələrdə Naxçıvan memarlıq məktəbinə xas olan xüsusiyyətlər öz əksini geniş şəkildə tapmışdır. Təbiidir ki, bütün bunlar olduqca qürurvericidir və tanınmış memar Əcəmi Naxçıvaninin böyük bir sənətkar olduğunu göstərən çox dəyərli və danılmaz faktlardır.

Əcəmi Naxçıvani dövrünün çox böyük memarı, kamil sənətkarı olmuş, sənətinin incəliklərinə yiyələnmiş, zirvəsinə yüksəlmişdir. Onun yaradıcılığını təhlil edərkən belə bir qəti qənaətə gəlmək olur ki, o dövrünün görkəmli memarı olmaqla bərabər, həm də zəmanəsinin bir sıra elmi biliklərinə, xüsusilə həndəsə, riyaziyyat, astronomiya və s. dünyəvi və dini elmlərinə dərindən yiyələnmiş, hərtərəfli inkişaf etmiş şəxsiyyət, böyük bir filosof olmuşdur. Təsadüfü deyildir ki, başqa həmkarlarından daha çox üstünlüklərə və elmi biliklərə malik olduğu üçün Əcəmi

Naxçıvani müasirləri tərəfindən "Şeyxül-Mühəndisin" ("Mühəndislərin başçısı", "Mühəndislərin şeyxi") kimi dəyərləndirilmişdir.

Əcəmi Əbubəkr oğlu Naxçıvani inşa etdiyi abidələr üzərində yazdığı kitabələrdə özünü "bənna" kimi təqdim etmişdir. XI-XIII əsrlərdə Azərbaycan memarlığında, xüsusilə onun Naxçıvan məktəbində "bənna" titulu daha üstün və məna tutumuna görə, daha geniş miqyaslı olmuşdur. Bu səbəbdən də, həmin vaxt öz sənətinin zirvəsinə yüksəlmiş, çox möhtəşəm abidələr yaratmış Əcəmi Əbubəkr oğlu Naxçıvani "bənna" titulu daşımış, ucaltdığı abidələr üzərində imzasını "bənna" kimi təqdim etmişdir.

Tanınmış sənətşünaslardan **Ə.V.Salamzadə** onun haqqında yazır: ***"Yaxın Şərqin bir çox memarlarının yaradıcılığına onun təsirini izləmək çətin deyil. Onun yaratdığı nadir arxitektura əsərləri əsrlər keçməsinə baxmayaraq, böyük estetik həzz mənbəyi kimi sənətkarın yaradıcı dühasının gücünü əks elətdirir. Bu əsərlər sübut edir ki, Əcəminin ölməz irsi haqlı olaraq, memarlıq sənətinin əbədi nümunələrindən sayılır. Yenidən doğulmuş bu sənət abidələri belə bir fikrə gəlməyə əsas verir ki, Əcəmi Naxçıvani öz dövründə tayı-bərabəri olmamış sənətkarlardandır. Təsadüfi deyil ki, XIII əsr mənbələri onun "şeyxül-mühəndisin" (mühəndislər başçısı) rütbəsi daşıdığından xəbər verir. Hələ Qərb dünyasında arxitektura sənəti anonim səciyyə daşıyan bir Dövrdə Əcəmi bir çox memarlıq incilərinin müəllifi kimi bizim qarşımızda parlaq və təkrar olunmaz yaradıcı simaya malik böyük sənətkar, bədii və mühəndis təfəkkürünün nəhəngi kimi canlanır."***

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Əcəmi Naxçıvaninin 850 illik yubileyi 1976-cı ildə Azərbaycanda təntənəli şəkildə keçirilmişdir.UNESCO-nun Baş Konfransının 42-ci sessiyasında görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin 900 illik yubileyi 2024–2025-ci illər ərzində UNESCO çərçivəsində qeyd olunacaq yubileylər siyahısına daxil edilib.

Əcəmi Naxçıvaninin əsərləri bu gün də yaşayır. Onun yaratdığı türbələr və memarlıq kompleksləri bərpa olunur, UNESCO tərəfindən qorunan mədəni irs siyahısına daxil edilir, memarlıq dərsliklərində tədris olunur və sənətkarın adı muzeylərdə, institutlarda yaşadılır. O, təkcə keçmişin memarı deyil, gələcəyin yol göstəricisidir.